# İstilik təchizatı ilə bağlı yeni qanun layihəsi müzakirəyə çıxarıldı



**Aprelin 23-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin iclası keçirilib. Komitənin sədri Sadiq Qurbanov " İstilik təchizatı haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirəyə çıxarıldığını bildirib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Azərbaycan Respublikasının Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin I bəndinə uyğun olan bu qanun layihəsinin istilik enerjisinin istehsalı, paylanması (o cümlədən ötürülməsi), satışı və istehlakı ilə bağlı istilik təchizatı subyektləri, istehlakçılar və istilik təchizatı sektorunda fəaliyyət göstərən dövlət orqanları (qurumları) arasında yaranan münasibətləri tənzimləyən, istilik təchizatının hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyən edən ilk qanunvericilik aktı olduğunu bildirib. Məlumat verilib ki, qanun layihəsi hazırlanarkən Avropa ölkələrinin və digər ölkələrin təcrübəsinə istinad edilib.

Daha sonra energetika nazirinin müavini Samir Vəliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəyyən etdiyi energetika siyasəti çərçivəsində son illər bir sıra yeni qanunların qəbul edildiyini və bu sahəni tənzimləyən qanunvericilik aktlarının müasir tələb və çağırışlara uyğunlaşdırıldığını söyləyib. O, "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" , "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" , "Elektroenergetika haqqında" qanunların bu baxımdan əhəmiyyət daşıdığını vurğulayıb.

Qeyd edilib ki, qanun layihəsində ilk dəfə olaraq bu sahədə dövlət siyasətinin əsas prinsipləri, dövlət tənzimləməsinin əsas məqsədləri, istilik təchizatı sektorunda dövlətin vəzifələri, istilik təchizatı sektorunda tənzimləyicinin səlahiyyətləri ilə bağlı müddəalar yer alıb .

Məlumat verilib ki, istilik təchizatı sektorunda ən aktual problemlərdən biri istiliklə təmin edilən yaşayış binalarında binadaxili mühəndis istilik kommunikasiyalarının balans mənsubiyyəti ilə əlaqədar onların saxlanması, təmiri və bərpası ilə əlaqədar mövcud problemlərin həllində balans saxlayıcısı olaraq dövlət və yerli özünüidarəetmə orqanlarının vəzifələrinin aydın şəkildə əks etdirilməsidir.

Daha sonra energetika nazirliyinin şöbə müdiri Ələsgər Həsənov və "Azəristiliktəchizat" ASC-nin sədr əvəzi İlham Mirzəyev bildiriblər ki, qanun layihəsinə bərpaolunan enerji mənbələrindən və su ehtiyatlarından, enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi, ətraf mühitin mühafizəsinə dair müddəaların daxil edilməsi sahənin inkişafı üçün ciddi əsasların və stimulların yaranmasına imkan verəcək.

Qanun layihəsinin müzakirəsində komitə sədrinin müavini Fatma Yıldırım, komitənin üzvləri Afət Həsənova, Naqif Həmzəyev, Vüqar Rəhimzadə, Eyvaz Qurbanov, Rövşən Muradov çıxış edərək məsələ ilə bağlı sual və təkliflərini səsləndiriblər.

Qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 24 aprel (№81).- S.7.